Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin
Kollegiyasının “15” may 2014-cü il tarixli,
“24/3” nömrəli qərarı ilə təsdiq edilmişdir.
7 nömrəli Əlavə

# Özəl tibb müəssisəsində narkotik və psixotrop maddələrin istifadəsinə razılıq məktubunun verilməsi üzrə

# İNZİBATİ REQLAMENT

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Özəl tibb müəssisəsində narkotik və psixotrop maddələrin istifadəsinə razılıq məktubunun (icazənin) verilməsi

**1.2. Elektron xidmətin məzmunu:** Özəl tibb müəssisəsində narkotik və psixotrop maddələrin istifadəsinə razılıq məktubunun verilməsi üçün bu reqlamentə əlavədə göstərilən ərizə formasının və bu reqlamentin 2.6-cı bəndində göstərilən sənədlərin elektron formada qəbul edilməsindən və nəticəsi barədə istifadəçiyə məlumat verilməsindən ibarətdir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

**1.3.1.** “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsi;

**1.3.2.** “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 may tarixli 578 nömrəli Fərmanının 1.2-ci bəndi;

**1.3.3.** “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;

**1.3.4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli, 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və “Elektron xidmət növlərinin Siyahısı”nın 14.15-ci bəndi.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (bundan sonra – Nazirlik)

**1.5. Elektron xidmətin digər icraçıları:** Yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Elektron xidmət qismən avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** 30 gün.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** Özəl tibb müəssisəsində narkotik və psixotrop maddələrin istifadəsinə nazirlik tərəfindən razılıq məktubunun verilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** interaktiv

**2.2. Elektron xidmət üzrə ödəniş:** ödənişsiz

**2.3. Elektron xidmətin istifadəçiləri:** hüquqi şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:**

http://www.e-gov.az; http://www.sehiyye.gov.az/;
http://www.e-health.gov.az/

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

İnternet ünvanı: http://www.e-gov.az ; http://www.sehiyye.gov.az
Elektron poçt: office@health.gov.az
Telefon: (+99412) 565 12 57, (+99412) 431 38 28

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

**2.6.1.** Ərizə (əlavə olunur);

**2.6.2.** Özəl tibb fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılıq (lisenziya) və ona verilən əlavənin surəti;

**2.6.3.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən mühafizə xidmətlərinin göstərilməsi barədə müqavilənin surəti;

**2.6.4.** Narkotik vasitələr və psixotrop maddələr saxlanılan otağa daxil olmağa icazəsi olan şəxslərin siyahısı.

Qeyd: Ərizə forması xidmətin təqdim edildiyi internet ünvanına daxil olaraq doldurulur və bu reqlamentin 2.6-cı bəndində göstərilən sənədlərin skan edilmiş surətləri ilə birlikdə elektron formada göndərilir.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:**

**3.1.1. Sorğunun formalaşdırılması:** İstifadəçi, bu reqlamentin 2.4-cü bəndində göstərilən internet ünvanlarına daxil olub şəxsiyyət vəsiqəsinin nömrəsini və fin kodunu daxil edir və qeydiyyatdan keçir. Bundan sonra istifadəçi internet səhifəsində elektron ərizə formasını doldurur və bu reqlamentin

2.6-cı bəndində göstərilən sənədləri ərizəyə əlavə kimi həmin internet səhifəsinə yükləyir.

**3.1.2. Sorğunun qəbulu:** Sorğu, internet səhifəsinə daxil olduğu gün qeydiyyata alınır və sorğunun qəbul edilməsi ilə bağlı istifadəçinin elektron poçt ünvanına dərhal bildiriş göndərilir.

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** İstifadəçi tərəfindən ərizə forması tam doldurulmadıqda, bu reqlamentin 2.6-cı bəndində göstərilən sənədlər internet səhifəsinə yüklənmədikdə və təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə sorğunun yerinə yetirilməsindən imtina edilir və imtinanın səbəbləri barədə ərizəçiyə 5 gündən gec olmayaraq məlumat verilir. Elektron xidmətin göstərilməsindən imtina, istifadəçinin bu elektron xidmət növünə yenidən müraciət etməsinə mane olmur.

**3.3. Sorğunun icrası:**

**3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

**3.3.1.1.** İstifadəçinin müraciəti qəbul edilməsi – nazirliyin Tibbi yardımın təşkili şöbəsi;

**3.3.1.2.** Müraciətin və sənədlərin yoxlanılması – nazirliyin Tibbi yardımın təşkili şöbəsi;

**3.3.1.3.** Özəl tibb müəssisələrində yoxlamaların aparılması - Respublika Narkoloji Mərkəzi;

**3.3.1.4.** Razılıq məktubun verilməsi – nazirliyin Tibbi yardımın təşkili şöbəsi.

**3.3.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:**

**3.3.2.1.** İstifadəçi Nazirliyə müraciət edilməsi üçün bu reqlamentə əlavədə göstərilən ərizə formasını doldurub, bu reqlamentin 2.6-cı bəndində göstərilən sənədləri ərizəyə əlavə kimi yükləyib onlayn rejimdə göndərir, müraciətin qeydiyyata götürülməsi haqqında avtomatik rejimdə istifadəçiyə bildiriş göndərilir. Avtomatik rejimdə müraciət, nazirliyin Tibbi yardımın təşkili şöbəsi üçün hazırlanmış proqram təminatına daxil olur.

**3.3.2.2.** Nazirliyinin Tibbi yardımın təşkili şöbəsi proqram təminatına düşmüş müraciəti qəbul edir, ərizəyə əlavə kimi yüklənmiş sənədləri yoxlayır.

**3.3.2.3.** Obyektdə yoxlamaların aparılması üçün müraciət, Respublika Narkoloji Mərkəzinə yönləndilir. Respublika Narkoloji Mərkəzi obyektdə yoxlamaların aparılmasını təmin edir və qeydə alınmış nəticələrə əsasən akt tərtib olunur.

**3.3.2.4.** Nazirlik tərtib olunmuş akta əsasən razılıq məktubunun verilməsi barədə qərar qəbul edir və razılıq məktubu ərizəçiyə birbaşa, poçt rabitəsi vasitəsilə və yaxud müraciət edənin qeydiyyat zamanı göstərdiyi elektron poçt ünvanına göndərilməklə təqdim olunur.

**3.3.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** yoxdur.

**3.3.4. hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:**

**3.3.4.1.** Sorğuya və ona əlavə edilən sənədlərə baxıldığı zaman aradan qaldırılması mümkün olan və imtina üçün əsas olmayan çatışmazlıqlar aşkar edildikdə bu barədə ərizəçiyə 5 gündən gec olmayaraq yazılı məlumat verilir. Onlar aradan qaldırıldıqdan və təkrar sorğu ilə müraciət edildikdən sonra təkrar baxılır və müvafiq qərar qəbul edilir.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.4.1. nəzarət forması:** Kargüzarlıq, daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə təşkil olunmuş mütəmadi monitorinqi.

**3.4.2. nəzarət qaydası:** Azərbaycan Respublikasının Prezidentinin 2003-cü il 27 sentyabr tarixli, 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada xidmətin yerinə yetirilməsinə nəzarət nazirliyin ümumi şöbəsi həyata keçirir.

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.5.1. istifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı vəzifəli şəxsə və ya məhkəməyə şikayət edə bilər.

**3.5.2. şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** Şikayət, kağız üzərində və elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət nazirliyin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən elektron poçt ünvanına göndərilməlidir. Şikayət, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74.2-ci maddəsinin tələblərinə uyğun olmalıdır.

**3.5.3. şikayətin baxılma müddəti:** İnzibati qaydada şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78.1-ci maddəsinə əsasən 1 ay müddətində baxılır və qərar verilir.

Özəl tibb müəssisəsində narkotik və psixotrop maddələrin istifadəsinə razılıq məktubunun verilməsi üzrə inzibati reqlamentə

**Əlavə**

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə**

Özəl tibb müəssisəsində narkotik və psixotrop maddələrin istifadəsinə razılıq məktubunalınması məqsədilə ______________________________________________tərəfindən
(müəssisənin rəhbəri)

**Ə R İ Z Ə**

| | |
|---|---|
| **Hüquqi şəxsin adı və VÖEN-i** | |
| **Təşkilati-hüquqi forması** | |
| **Hüquqi ünvanı (şəhər, rayon (indeks), küçə, ev,** | |
| **Telefon, faks, elektron poçt ünvanı** | |
| | |
| **Hesablaşma-hesabının nömrəsi və bankın adı** | |
| **Fəaliyyət növü** | |